Almaniya Federativ Respublikasının
Səfirliyi
Bakı

Aktuallaşdırılmışdır: yanvar 2026

# Praktika üçün məlumat vərəqəsi

Xahiş olunur əvvəlcə milli viza üçün müraciət etməyə dair **ümumi məlumatları** oxuyun.

Praktika gündəlik iş həyatı haqqında təəssürat yaradır. Burada adətən əmək münasibətləri nəzərdə tutulur. Bunun göstəricisi təlimata uyğun bir əmək fəaliyyəti və təlimat verən tərəfin iş təşkilinə inteqrasiyadır.
Təcrübə fəaliyyəti üçün viza „Əcnəbi vətəndaşların əmək fəaliyyəti haqqında nizamnamə"yə uyğun hüquqi əsas olduğu təqdirdə verilir. Sizin təcrübə keçmək istədiyiniz qurum iş icazəsini verən idarə Federal Məşğulluq Agentliyi (Bundesagentur für Arbeit) ilə əvvəlcədən əlaqə yaradıb planlaşdırılan praktikanız üçün iş icazəsinin və ya razılığın verilməsinə ehtiyacın olub-olmadığını və bu icazənin verilib-verilməyəcəyi imkanlarını aydınlaşdırmalıdır.

Praktika üçün milli viza almaqdan ötrü **yalnız kənar xidmət şirkəti TLScontact-a** müraciət edilə bilər.
Viza müraciətlərinin qəbulu mərkəzinin ünvanı: **Xocalı prospekti 37, Dəmirçi Biznes Mərkəzi, AZ1025 Bakı, Azərbaycan.** Qəbul vaxtının təyin olunması üçün aşağıdakı linkdən istifadə edə bilərsiniz: https://visas-de.tlscontact.com/en-us/country/az/vac/azBAK2de/application-process

Bu məlumat vərəqəsinə uyğun olaraq tam şəkildə təqdim edilmiş sənədlər, praktika üçün Federal Məşğulluq Agentliyi tərəfindən verilmiş icazə və ya razılıq sənədi yaxud „Əcnəbi vətəndaşların əmək fəaliyyəti haqqında nizamnamə"yə uyğun belə bir icazə sənədinin tələb edilmədiyi haqqında təsdiq olarsa sənədlərə baxılma müddəti orta hesabla 4-8 həftədən ibarətdir. Əvvəllər Almaniyada yaşadığınız təqdirdə (bax. Yaşamaq haqqında Nizamnamədə § 31-ci maddənin 1-ci paraqrafı, 1-ci cümlə, nömrə 2, c hərfi) və/yaxud Federal Məşğulluq Agentliyindən tərəfindən icazənin tələb olunduğu, lakin əvvəlcədən icazə sənədnin verilmədiyi praktika halında, işlənmə müddəti adətən təqribən 8-12 həftə davam edir.)

**Viza almaq üçün aşağıdakı sənədlər tələb olunur:**

| **Viza ərizəsi üçün sənədlərin siyahısı**<br>Hər bir ərizə ilə aşağıdakı sənədlər tam şəkildə təqdim edilməlidir. |
|---|
| ☐ Xarici pasport ən azı 2 boş səhifəsi olmaqla (xarici pasportun şəkil olan səhifəsi və əvvəlki vizalar, möhürlər və qeydlər olan səhifələrin *əsli + 1ədəd surəti)* |
| ☐ Şəxsiyyət vəsiqəsi və ya Azərbaycan vətəndaşlığı olmayan şəxslər üçün etibarlı olan "Azərbaycanda yaşamaq icazəsi" sənədi *(əsli + 1 ədəd surəti)* |
| ☐ 1 ədəd alman dilində tam şəkildə doldurulmuş və şəxsən imzalanmış milli viza üçün ərizə forması |
| ☐ 2 ədəd biometrik pasport şəkli (3,5x4,5; 6 aydan köhnə olmamalı) |
| ☐ Viza rüsumu (milli viza üçün müraciət etməyə dair ümumi məlumatlara bax) |
| ☐ Almaniyada Yaşamaq haqqında Qanunun 18-ci mad. 2-ci paraqrafının 4a bəndinə uyğun olaraq dəqiq iş yeri təklifi haqqında təsdiqin təqdim edilməsi |
| ☐ müəyyən şərtlər altında – "Məşğullug haqqında Qaydaların ""36-cı maddəsinin 3-cü bəndinə uyğun olaraq Federal Məşğulluq Agentliyinin öncədən razılığı (Vorabzustimmung der Bundesagentur für Arbeit) |
| ☐ Praktika müqaviləsi (əsli + 1ədəd surəti) aşağıdakı məlumatlar əks olunmaqla:<br>- İşə götürənin adı və ünvanı habelə işə götürənin yanında əlaqələndirici şəxsin məlumatları<br>- Praktikanın keçiriləcəyi yer (əgər işə götürənin ünvanından fərqlidirsə) |

| | |
|---|---|
| | - Praktikanın  müddəti<br>- Aylıq ümumi "qross" əmək haqqı: praktika üçün bir qayda olaraq qanunla müəyyən edilmiş minimum əmək haqqı (saatda "qross" 13,90 Avro) nəzərdə tutulur, bu məbləğ minimum əmək haqqı qanununa (məsələn, icbari təcrübə) uyğun gəlməyən praktikaya şamil edilmir.<br>- Həftəlik iş saatlarının sayı (tam gün/yarım gün) |
| ☐ | Praktika/Təkmilləşdirmə təhsilinə dair plan |
| ☐ | Sizin peşə fəaliyyətinizi əks etdirən tərcümeyi-hal |
| ☐ | Əgər varsa: bu vaxtadək aldığınız təhsilə dair sənədlər məs. diplomlar və ya şəhadətnamələr, təhsil arayışı (*əsli + 1 ədəd surəti*) |
| ☐ | Gələcək planlarınıza dair məlumatların qeyd olunduğu motivasiya məktubu |
| ☐ | Əgər varsa: Bu vaxtadək əldə olunan alman dili biliklərinə dair sənəd məs.: dil sertifikatı (*əsli +1 ədəd surəti*) |
| ☐ | Bütün səfər müddəti üçün qüvvədə olan tibbi sığorta |

| **Əgər praktika xarici ali məktəb təhsilinin 4-cü semestridən sonra təhsil ixtisasına üyğundursa və ya praktika  beynəlxalq mübadilə proqramları çərçivəsində baş tutursa:** | |
|---|---|
| ☐ | bu halda Federal Məşğulluq Agentliyinin razılığı haqqında arayış (ZAV-Bescheinigung)  (*əsli +1 ədəd surəti*) |
| ☐ | Azərbaycan universitetinə qəbul olunma haqqında sənəd (*əsli +1 ədəd surəti*) |
| ☐ | Praktika təhsilinizlə birbaşa əlaqəli olmalıdır |
| ☐ | Praktikanın müddəti maksimum 12 ay ilə məhdudlaşır |
| ☐ | Praktikantın „qross“əmək haqqı həftəlik 40 saatlıq iş saatı üçün ayda  ən az 1030 Avro olmalıdır. Əgər heç bir ödəniş yoxdursa və ya daha az məbləğ ödənilmirsə, Sizə öz yaşayış xərclərinizi maliyyələşdirmək üçün öhdəlik bəyannaməsi və ya kifayət qədər maliyyə vəsaitinizin təsdiqi  lazımdırBestätigung des Einvernehmens der Bundesagentur für Arbeit (ZAV-Bescheinigung) *(Original + 1 Kopie)* |

| **beynəlxalq mübadilə proqramları zamanı əlavə olaraq təqdim edilir:** | |
|---|---|
| ☐ | Mübadilə haqqında razılaşma (məs., DAAD, AIESEC, IAAS, GIZ, bvmd, ali məktəblər və bu təhsil ocaqları tərəfindən idarə olunan mübadilə qurumları) (*əsli +1 ədəd surəti*) |

| **Əgər praktika Aİ tərəfindən maliyyələşən proqram çərçivəsində baş tutursa:** | |
|---|---|
| ☐ | bu halda maliyyələşmə barədə dəstəyin təsdiqi (məsələn ERASMUS tərəfindən) (*əsli +1 ədəd surəti*) |